GÜNÜN SİYASİ NƏBZİ








# Azərbaycan enerji siyasətini transmilli layihələrlə genişləndirir

*Azərbaycanın enerji siyasəti ölkənin zəngin neft və qaz ehtiyatlarına əsaslanır və bu resurslardan səmərəli şəkildə istifadə olunmasına yönəlib. Bu siyasət həm iqtisadi inkişafın sürətlənməsinə, həm enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq enerji bazarlarında fəal iştirakına xidmət edir. Təbii ki, hər bir sahədə olduğu kimi, enerji siyasətinin də özünəməxsus istiqamətləri və xüsusiyyətləri mövcuddur. İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycan dünyanın önəmli neft və qaz ölkələrindən biridir. Xüsusilə də Xəzər dənizində yerləşən Azəri-Çıraq-Günəşli (AÇG) neft yataqları və Şahdəniz qaz yatağı bu sahədə əsas mənbələr hesab olunur.*

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" məhz Azəri-Çıraq-Günəşli (AÇG) yataqlarının birgə işlənməsini nəzərdə tuturdu. Elə həmin dövrdən etibarən növbəti illərdə imzalanan digər neft-qaz müqavilələri və yaradılan konsorsiumlar da bu müqavilənin uğurlu bazası üzərində formalaşdı. Bu amil Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasında mühüm rol oynadı. Digər tərəfdən, bu uğur eyni zamanda beynəlxalq enerji əməkdaşlığının inkişafı üçün də geniş imkanlar yaratdı. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan enerji siyasətini transmilli layihələrlə genişləndirir. Bu layihələrin coğrafiyası genişlənməkdədir, həm də məzmun baxımından onlar yeni komponentlərlə zənginləşir. Xüsusilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri Xəzər dənizindən Aralıq dənizinə çıxışı təmin edən strateji marşrutlardan biridir.

Cənub Qaz Dəhlizi Azərbaycanın təbii qazını Avropaya nəql etmək baxımından mühüm strateji layihədir. Bu dəhliz dörd əsas komponentdən ibarətdir. Birinci komponent - "Şahdəniz-2", ikinci - Cənubi Qafqaz Boru Kəməri - Azərbaycan və Gürcüstan ərazisindən keçir. Üçüncü - TANAP (Trans-Anadolu Boru Kəməri) - Türkiyə ərazisini əhatə edir. Dördüncü komponent isə TAP (Trans-Adriatik Boru Kəməri) adlanır və Yunanıstan, Albaniya və İtaliya ərazilərini birləşdirir. Bu layihələr Azərbaycanın enerji ixracını şaxələndirməyə və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verməyə xidmət edir.

Şübhəsiz ki, bu siyasətin həyata keçirilməsində Dövlət Neft Fondunun xüsusi rolu var. Fond enerji gəlirlərinin şəffaf və səmərəli istifadəsini təmin edir. Neft Fondu vasitəsilə ölkənin sosial və infrastruktur layihələri maliyyələşdirilir. Xüsusilə 2001-2002-ci illərdə məcburi köçkünlər üçün yeni şəhərciklərin salınması və digər əhəmiyyətli sosial proqramların həyata keçirilməsi bu fondun imkanları hesabına baş tutub. Bu baxımdan, Neft Fondu ölkənin sosial rifahının gücləndirilməsi üçün vacib mexanizmlərdən biridir.

Azərbaycanın enerji siyasətində daha bir mühüm komponent - enerji təhlükəsizliyi və hüquqi-normativ çərçivənin müasirləşdirilməsidir. Bu, enerji sektorunun davamlı və şəffaf inkişafını təmin etmək məqsədilə həyata keçirilir. Enerji effektivliyi, ətraf mühitin qorunması və rəqabətqabiliyyətli enerji bazarının formalaşdırılması istiqamətində mühüm qanunvericilik aktları qəbul olunub. Ölkənin qaz ehtiyatlarından və ixrac potensialından danışarkən, xüsusilə son illərdə Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyi məsələlərinə yönələn diqqət fonunda Azərbaycanın rolu daha da aktuallaşıb. Avropa Komissiyasının rəhbərliyi də daxil olmaqla bir çox qurumlar Azərbaycana qaz hasilatının artırılması ilə bağlı müraciətlər ünvanlayıblar. Bu isə Azərbaycanın qaz ixracı potensialının artdığını və regionda strateji enerji aktoruna çevrildiyini göstərir. Azərbaycanın bu potensialının reallaşdırılmasında "Şahdəniz" qaz yatağı və onun ətrafında formalaşdırılmış infrastruktur mühüm rol oynayır. Bu infrastruktura əsaslanan layihələr ölkənin qaz ehtiyatlarının səmərəli idarə olunmasını təmin edir.



Aidiyyəti dövlət strukturlarının birgə yanaşması əsasən, Azərbaycanın əsas qaz ehtiyatları Xəzər dənizində yerləşən iri yataqlarda cəmləşib. Onların içərisində ən böyüyü - "Şahdəniz" yatağının ehtiyatları təxminən 1 trilyon kubmetr həcmində qiymətləndirilir. Bundan başqa, "Abşeron", "Ümid-Babək", "Asiman", "Naxçıvan" və digər perspektivli strukturlar da qaz hasilatının artırılması baxımından böyük imkanlar yaradır. Azərbaycanın qaz ixracı potensialını gücləndirən mühüm amillərdən biri də mövcud infrastruktur - Cənub Qaz Dəhlizi layihəsinin - məhz bu yataqlar üzərində qurulmasıdır.

Son illər, xüsusilə də 44 günlük Vətən müharibəsindən sonra enerji siyasətində yeni istiqamət - yaşıl enerji və enerji keçidi məsələləri ön plana çıxıb. Bu, Azərbaycanın enerji siyasətinin davamlı inkişaf və ekoloji təhlükəsizlik prinsiplərinə uyğun şəkildə bərpa olunan enerji sahəsinə yönəlməsi ilə nəticələnib. 2021-ci ildən etibarən külək, günəş və bioenerji kimi bərpa olunan enerji mənbələrinə yatırımlar artmağa başlayıb. Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji potensialı reallaşdırılır. Beynəlxalq şirkətlər də bu prosesdə fəal iştirak edir və Azərbaycanla əməkdaşlığa maraq göstərirlər. Burada "Masdar" və digər nüfuzlu beynəlxalq enerji şirkətlərinin adını xüsusilə qeyd etmək olar. "Yaşıl enerji" məsələsindən bəhs edərkən, istər-istəməz diqqətimiz işğaldan azad olunmuş ərazilərə yönəlir. Bir zamanlar "boz zona" kimi tanınan bu ərazilərin tədricən yaşıl enerji zonasına çevrilməsi istiqamətində mühüm layihələr həyata keçirilir.

Azərbaycanın 2027-ci ilə qədər illik qaz ixracını 20 milyard kubmetrdən 30 milyard kubmetrə qədər artırmaq planlaşdırılır. Bu planlar 2022-ci ildə Avropa İttifaqı ilə imzalanmış Strateji Enerji Tərəfdaşlığı Memorandumu əsasında həyata keçirilir. Memorandum Azərbaycanın Avropaya qaz ixracının artırılmasında əsas yol xəritəsi hesab olunur. Abşeron yatağının istismara verilməsi də bu artımı təmin edəcək əsas mənbələrdən biri sayılır. Azərbaycanın qaz ixracı potensialının bu şəkildə gücləndirilməsi yalnız iqtisadi deyil, həm də geosiyasi əhəmiyyət daşıyır. Çünki Avropanın bir çox ölkələri Rusiya qazından asılılığı azaltmağa çalışır və belə bir vəziyyətdə Azərbaycanın alternativ enerji tərəfdaşı kimi rolu daha da önəm qazanır. Məhz Cənub Qaz Dəhlizi bu baxımdan enerji marşrutlarının şaxələndirilməsində strateji əhəmiyyətə malikdir.

2023-cü ildə Azərbaycan "Masdar" şirkəti ilə birlikdə 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasını istismara vermişdir. Bunun ardınca 445 meqavat gücündə Neftçala, 315 meqavat gücündə Biləsuvar günəş stansiyaları, həmçinin Qaradağda 240 meqavat gücündə külək stansiyası kimi layihələrin icrasına başlanılmışdır. Bu layihələrin

BAKU ENERGY WEEK

ümumi istehsal gücü təxminən 3 milyard kilovat-saat enerji həcmində qiymətləndirilir. Nəticədə 500 milyon kubmetrə yaxın təbii qazın qənaət olunması gözlənilir. Eyni zamanda, 1 milyon ton səviyyəsində karbon emissiyasının azaldılması nəzərdə tutulur. Beləliklə, qənaət olunan qazın xarici bazarlara, xüsusilə də Avropa ölkələrinə ixracı Azərbaycanın qaz ixracı potensialını daha da gücləndirəcək.

Enerji siyasətinin gələcək perspektivlərinə gəldikdə isə, 2030-cu ilə qədər Azərbaycanın elektrik enerjisi istehsal gücünün ən az 30 faizinin bərpaolunan enerji mənbələri hesabına təmin olunması hədəflənir. Bu məqsədə çatmaq üçün əlavə 6.5 giqavatlıq gücün yaradılması və 5 giqavatlıq "yaşıl enerji"nin ixracı nəzərdə tutulur. Ümumilikdə isə, 2031-2037-ci illər üçün 21 giqavat həcmində əlavə bərpaolunan enerji istehsalı gücü formalaşdırılması planlaşdırılır. Bu layihələr arasında günəş və külək enerjisi ilə yanaşı, dekarbonizasiya təşəbbüsləri də xüsusi yer tutur.

Bərpaolunan enerji sahəsində regional əməkdaşlıq da intensiv şəkildə inkişaf etdirilir. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə elektrik ötürülməsi məqsədilə 1100 kilometr uzunluğunda, 1000 meqavat gücündə sualtı kabelin inşası üçün ortaq müəssisə yaradılıb. Bu layihə yalnız regionun deyil, eyni zamanda Avropanın enerji şaxələndirməsinə də mühüm töhfə verir. Digər bir strateji təşəbbüs isə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin altından keçəcək təmiz enerji kabelinin çəkilməsi layihəsidir. Bu təşəbbüs çərçivəsində tərəflər arasında strateji əməkdaşlıq sənədi imzalanıb. Məqsəd - Avropa bazarlarına yaşıl enerji ixracını təmin etməkdir. Bu layihə regional enerji inteqrasiyasının parlaq nümunəsi olmaqla yanaşı, Azərbaycanı aşağı karbonlu hidrogen iqtisadiyyatının inkişafında da lider aktora çevirir. Burada Azərbaycanın yaşıl enerji siyasətində mühüm mərhələlərdən biri kimi "Milli Hidrogen Strategiyası" xüsusi yer tutur. Bu sənəd Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində hazırlanmış və COP29 konfransına təqdim olunmuşdur. Strategiyanın əsas məqsədi - bərpaolunan enerji resurslarından istifadə etməklə hidrogen istehsalını təşkil etmək və bu istiqamətdə ölkənin yeni bir texnoloji mərhələyə keçidinə nail olmaqdır. Bu çərçivədə həyata keçirilən enerji saxlama layihələri də diqqətəlayiqdir. Çin şirkətləri ilə imzalanmış razılaşmalar əsasında 100 meqavat gücündə günəş elektrik stansiyası və 30 meqavat gücündə batareya əsaslı enerji saxlama sistemi layihələri icra olunur. Bu layihələr həm dayanıqlı enerji infrastrukturunun formalaşması, həm də enerjinin davamlı saxlanması baxımından strateji əhəmiyyət kəsb edir.

COP29 konfransı Azərbaycanın "yaşıl enerji" təşəbbüslərinin beynəlxalq miqyasda təqdim olunması üçün olduqca əlverişli platforma rolunu oynamışdır. Faktiki olaraq, iqlim dəyişmələrinə qarşı qlobal tədbirlərin mərkəzində yer alan bu tədbir Azərbaycanın enerji keçidi sahəsində atdığı uğurlu addımları dünya ictimaiyyətinə nümayiş etdirməyə imkan verdi. Bəzi beynəlxalq müşahidəçilər Azərbaycanın neft və qaz ixracından kənar, alternativ enerji mənbələri istiqamətində daha konkret addımlar atmasını gözlədiklərini ifadə edirlər. Lakin qeyd etmək lazımdır ki, Avropanın bir çox ölkələri enerji təhlükəsizliyi məsələsində hələ də Azərbaycanın ixrac etdiyi təbii qazdan asılı vəziyyətdədir. Bu da Azərbaycanın enerji diplomatiyasını real və praktiki nəticələrlə müşayiət etməsinə imkan yaradır. COP29-da da bu reallıq bir daha təsdiqləndi. Azərbaycanın "yaşıl enerji" siyasəti, xüsusilə də bərpaolunan enerji keçidi istiqamətində əldə etdiyi nailiyyətlər, beynəlxalq ictimaiyyətdə ciddi rezonans doğurur.

Bu, Azərbaycanın enerji siyasətində reallıqla populizm arasında sərhədi doğru şəkildə müəyyənləşdirməsi və qazandığı texnoloji üstünlükləri həm siyasi, həm iqtisadi dividentə çevirməsi baxımından olduqca mühüm məqamdır.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**